AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2021, №1 (267), 52–69

AZƏRBAYCAN ƏDƏBİYYATI
NİZAMİ GƏNCƏVİ – 880

Nizami Gəncəvinin əsərlərində psixoloji dəyərlər

Gülnarə Əlixanova
Psixologiya üzrə fəlsəfə doktoru, ADPU-nun Pedaqoji psixologiya kafedrası.
Azərbaycan. E-mail: gulnare.alixanova@mail.ru
https://orcid.org/0000-0002-5241-0250

XÜLASƏ
Dahi şair və mütəfəkkir Nizami Gəncəvinin insanları daim əxlaqi kamilliyə səsləyən və yüksək mənəvi psixoloji keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq, anadan olmasının 880 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliğinə böyük töhfədir. Şairin yaradıcılığı xalqımızın milli mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir. Vətənpərvər şair əsərlərində təsvir etdiyi bütün hadisələri Azərbaycanla əlaqələndirməyə, Vətəninin keçmiş günlərini tərənnüm etməyə çalışmışdır. Qüdrətli söz ustadının bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi, psixoloji və əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir. Korifey sənətkar öz ənənələri ilə seçilən ədəbi məktəbi yaratmışdır. Nizami Gəncəvinin dünyanın ən zəngin kitabxanalarını bəzəyən əsərləri Şərqdə incəsənətin, xüsusən də miniatür sənətinin inkişafına təkan vermişdir.

AÇAR SÖZLƏR
N.Gəncəvi, şəxsiyyət, özünüqiymətləndirmə, kamil insan, vətənpərvərlik, psixoloji dəyər

MƏQALƏ TARİXÇƏSİ
göndərilib: 12.01.2021
qəbul edilib: 28.01.2021

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2021, VOL. 267, NO. 1, 52–69

AZERBAIJANI LITERATURE
NIZAMI GANJAVI – 880

Psychological values in the works of Nizami Ganjavi

Gulnara Alixanova
Doctor of Philosophy in Psychology, Department of Pedagogical Psychology, ADPU. Azerbaijan.
E-mail: gulnare.alixanova@mail.ru
https://orcid.org/0000-0002-5241-0250

ABSTRACT
The celebration of the 880th anniversary of the birth of the great poet and thinker Nizami Ganjavi at the state level is a great contribution to the promotion of the rich historical and cultural heritage of Azerbaijan. Nizami's work has become an integral part of the spirituality of our people. For Nizami Ganjavi, the highest criterion of personality was humanity. The patriotic poet tried to connect all the events he described with Azerbaijan, to glorify the past days of his homeland. The immortal works of the great master of words, which opened a new bright page in the annals of artistic thought of mankind, still serve the spiritual, psychological and moral perfection of people. Coryphaeus created a literary school distinguished by its traditions. Nizami Ganjavi's works, which adorn the richest libraries in the world, gave impetus to the development of art in the East, especially miniature art.

KEYWORDS
N.Ganjavi, personality, self-esteem, perfect man, patriotism, psychological value

ARTICLE HISTORY
Received: 12.10.2020
Accepted: 24.11.2020

Giriş / Introduction

Zəngin mədəniyyət tariximizin ən parlaq simalarından olan N.Gəncəvinin dərin və sonsuz ümmana bənzəyən poeziyasında həm milli-mənəvi, həm də ümumbəşəri dəyərlər öz əksini tapmışdır. N.Gəncəvi haqqında ən yüksək fikirləri söyləyən, onun xatirəsinin əbədiləşdirilməsi, irsinin dərindən öyrənilib dünya miqyasında tanıdılması üçün dövlət səviyyəsində nəhəng işlər görən məhz Azərbaycan mədəniyyətinə və incəsənətinə hər zaman böyük qayğı göstərən ümummilli liderimiz H.Əliyev olmuşdur. Onun təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açıb. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmiş, 2011-ci ildə isə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş şəkildə qeyd edilmişdir.

2021-ci ili Prezidentimiz İlham Əliyevin dahi Azərbaycan şairi Nizami Gəncəvinin şərəfinə “Nizami ili” elan etməsi ölkəmizdə klassik ədəbi irsimizin, milli ədəbiyyatımız və mədəniyyətimizin görkəmli simalarının təbliği sahəsində atılan növbəti addımdır. Böyük Azərbaycan şairi Nizami Gəncəvi haqqında imzalanmış Sərəncam yeni nəsillərdə milli iftixar, azərbaycançılıq, vətənpərvərlik duyğuları aşılamaq, milli-mənəvi psixoloji özünüdərk prinsiplərini daha geniş şəkildə təbliğ etmək üçün də qarşımızda yeni perspektivlər açır.

Dövlət başçısı İlham Əliyevin 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncamında qeyd edildiyi kimi, böyük sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Onun geniş şöhrət tapmış “Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Poeziya dünyasının dahisi Nizami Gəncəvinin ölməz ədəbi irsi təkcə humanizm, insana məhəbbət, yüksək əxlaq, estetik zövq, tərbiyə və bilik mənbəyi, heç vaxt qiymətini, etik təsirini itirməyən əlvan söz, dərin fəlsəfi fikir, hikmət xəzinəsi olmaqla bərabər, həm də canlı tariximizdir, keçmişimizin ən qaranlıq guşələrinə işıq salan sönməz məşəldir. Mütəfəkkir şairin ədəbi irsinin təbliği bütün dövrlər üçün öz aktuallığını və psixoloji təsirini qorumaqla yanaşı, müxtəlif peşə sahibləri kimi psixoloqların da qarşısında onun əsərlərini araşdırıb daha sanballı psixoloji fikir və ideya mənbələrinin ortaya qoyulmasını və dahi şairin hər kəlməsinin psixoloji cəhətdən mənasının araşdırılmasını tələb edir. Bu işin daha geniş miqyasda inkişaf etdirilməsi üçün hər kəs üzərinə düşən işi məsuliyyətlə və yüksək səviyyədə yerinə yetirməlidir .

Nizami yaradıcılığının ən əhəmiyyətli hissəsi insan şəxsiyyətinin psixoloji cəhətdən düzgün formalaşdırılması məqsədi daşıyan hikmətli hekayətlərdən ibarətdir. Deməli, bu zəngin materiallardan məhz müasir dövrün tələbləri ilə böyüyən kiçik və orta yaşlı məktəblilər, yeniyetmələr və gənclərdə şəxsiyyətin formalaşması və idrak qabiliyyətlərinin inkişaf etdirilməsi prosesində məqsədyönlü şəkildə istifadə etmək olar.

Dahi Nizami irsinin öyrədilməsi humanitar fənlər arasında birinci yeri tutsa da, onun əsərlərində təzahür edən ideyaların və şəxsiyyətyönümlü fikirlərin psixoloji mahiyyəti çox dərindir. Çünki Nizami dahi şair olmaqla yanaşı, böyük mütəfəkkir-filosof, ensiklopedik biliyə malik olan, əsərlərində psixoloji fikir və dəyərlərə daha çox yer verən alimdir [1, s.20].

Dahi Nizaminin təhsil, təlim, tərbiyə və şəxsiyyətin inkişafı ilə bağlı hikmət dolu psixoloji fikirləri zəngin, geniş və dərindir. Onun əsərlərində həm humanitar (ədəbiyyat, dilçilik, tarix, musiqi, təsviri incəsənət və s.), həm də təbiət-riyaziyyat elmləri (fizika, həndəsə, kimya, biologiya, coğrafiya və s.) ilə bağlı dəyərli psixoloji fikirlər, zamanı qabaqlayan psixoloji ideyalar kifayət qədərdir. Məsələn, “Oğlum Məhəmmədə nəsihət” şeirində şair öz oğlunun timsalında gənc nəslə əxlaqi hisslərin inkişaf etdirilməsini bu cür tövsiyə edir:

1. İnsan cavanlıq yaşından qeyrətlə çalışmalı, öz hünəri ilə uğurlar qazanmağa nail olmalıdır;
2. Cəmiyyətdə öz yerini tutmaq və ağıllı-kamallı olmaq lazımdır;
3. İnsan hisslərini cilovlamağı bacarmalıdır;
4. İnsan öyrəndiyi elmi və ya peşəni dərindən bilməli, onun kamil ustası olmalıdır;
5. Cavanlar ata öyüd-nəsihətinə qulaq asmalı və onlara əməl etməlidirlər.

Aparılan tədqiqatlar göstərir ki, dahi şairin ayrı-ayrı əsərlərinin dərindən öryənilməsi, həmin əsərlərdəki psixoloji fikir və ideyaların tam üzə çıxarılması baxımından müasir psixoloji təsir vasitələri və texnologiyaları əsasında hazırlanan təqdimatlar mühüm

əhəmiyyət kəsb edir. Gənclərdə idrak proseslərinin inkişaf etdirilməsinə, yaradıcılıq qabiliyyətlərinin, təfəkkür, təxəyyül, müstəqil düşünmək, eyni zamanda bilik, vərdiş və bacarıqların inkişafına güclü təkan verir.

Nizami Gəncəvi bütün yaradıcılığı boyu lirik şeirlər yazmış, sonralar poemalarında irəli sürdüyü ictimai, fəlsəfi və psixoloji dəyərli fikirlərini ilk dəfə bu şeirlərində ifadə etmişdir. Şairin lirikası yüksək sənətkarlığı, məhəbbətə dünyəvi münasibəti, insan taleyi haqqında humanist düşüncələri ilə seçilir. Onun ilkin yaradıcılığında dövrünün ən humanist, ümümbəşəri ictimai-siyasi, sosial və psixoloji, əxlaqi idealları parlaq şəkildə öz bədii əksini tapmışdır.

Dahi sənətkar şəxsiyyətin ən yüksək meyarını insanlıq hesab edirdi. İrqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edirdi. Onun qəhrəmanları içərisində müxtəlif xalqlara və dinlərə mənsub olan nümayəndələr vardır. Bu qəhrəmanlar ədalət, xalq xoşbəxtliyi, ali məqsədlər uğrunda vuruşurlar. İnsan şəxsiyyətinə, insan əməyinə və qarşılıqlı münasibətlərə hörmət şairin yaradıcılığının əsas mövzularındandır [2, s.103].

Elm və mədəniyyətimizin inkişafı ilk növbədə "insan amilindən", gələcəyimiz olan gənclərimizin intellektual hazırlıq və vətəndaşlıq səviyyəsinə bağlıdır. Bu keyfiyyətlərin formalaşdırılmasında Nizami Gəncəvi poeziyasının rolu misilsizdir. Şairə Flora Xəlilzadənin gəldiyi elmi qənaətə görə: "Vətənə, xalqa xidmət haqqında düşünürüksə, müharibənin, ədalətin nə olduğunu, hünər, cəsarət, mərdanəlik, çalışqanlıq, məhəbbət, sevgi, düzlük, səadət kimi məziyyətlərdən xəbət tutmaq, gəncliyin, qocalığın fərqini anlamaq, səbrin, qənaətin fəzilətinə dolmaq, bir sözlə, insan olmaq istəyiriksə, Nizamini oxumaq, duymaq, onun hikmət çeşməsindən dadmaq və əməl etmək bəs edər".

"İnsan amili"nin öndə dayandığı müasir dövrümüzdə humanist, demokratik, hüquqi cəmiyyətin yaradılmasında dahi şairimizin "kamil insan" konsepsiyası çox aktualdır. N.Gəncəvinin şəxsiyyətin inkişafına dair hikmət dolu psixoloji məna kəsb edən kəlamları, öz zamanını doqquz yüz ilə yaxın bir vaxt müddətində qabaqlayan psixoloji ideyaları həddən ziyadə çoxdur.Mütəfəkkir şair öz əsərlərində "şəxsiyyətin formalaşmasında yalnız irsiyyət deyil, digər amillər də mövcuddur" fikrini ifadə etmişdir. N.Gəncəvi əsərlərində insanın şəxsi – mənəvi keyfiyyətlərinin formalaşmasında mühit amilinin əvəzsiz roluna aid ideyanın psixoloji məzmununu bu cür açıqlayır: "Əgər insansansa, insanları sev". Bu tövsiyəni verən humanist şair yaxşı adamlarla qarşılıqlı münasibət qurmağı, pis adamlardan uzaq olmağı və mənfi davranışın psixoloji təsiri altına düşməməyi rəva bilir.

"Ağılsız kəslərlə oturub-duran, ağıldan, şüurdan deməsin dastan", – deyən şair başa salır ki, elmli, mərifətli adamlarla dost olmaq daha yaxşıdır:

Bədəsil olarsa əgər bir adam,
Qırmızı gövhəri saraldar tamam.
Ağıllı adamla dost olsan əgər,
Elmi, mərifəti sənə də keçər.

Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması dərin humanizmi, möhkəm süjet xətti, kompozisiya bütövlüyü, surətlərin tamlığı və psixoloji mənası ilə müasirlərini valeh etmiş və səkkiz yüz ildən artıq bir vaxtda öz təravətini saxlayaraq hələ də əldən-ələ gəzməkdədir. Bu poema böyük fəlsəfi – psixoloji və bədii keyfiyyətlərinə görə Şərq poeziyasının və bütün dünya ədəbiyyatının müstəsna əhəmiyyət kəsb edən sənət əsəridir. Poema orta əsrlərdə dövlətlərin və ölkələrin sərhədlərini aşaraq bütün dünyaya yayılmış, böyük əks-səda doğurmuş nadir sənət incilərindəndir. Dahi sənətkar N.Gəncəvi "Leyli və Məcnun" əhvalatına ruhən bağlanmış, onu bütün varlığı ilə sevmiş, dastanı şair təxəyyülünün zəngin boyaları ilə bəzəmiş və əbədi yaşaya biləcək bir sənət əsəri yaratmışdır [3, s.71].

Şair "Yeddi gözəl" poemasında mühit amilinin psixoloji dəyərini bir daha qeyd edir, irsi imkanları toxuma, qeyri-sağlam mühiti "şoran torpağa" bənzədir və insanlara başa salmağa çalışır ki, şəxsiyyətin formalaşmasında yaxşı nəticə almaq üçün əlverişli psixoloji mühit və şərait yaradılmalıdır:

Hər kim toxum əksə şoranlıq çölə,
Bircə peşimanlıq gətirər ələ.
Ağac əkilməli münbit bir yerə,
Ta behişt barıtək meyvələr verə.

Dahi şair şəxsiyyətin formalaşmasında təhsil, təlim və tərbiyəyə, yəni pedaqoji proses amilinə xüsusi önəm vermişdir. "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz" – deyən şairə görə, insanı heyvanlardan fərqləndirən əsas əlamət onun ağlı, düşüncəsi və kamalıdır. Ağlın çırağı isə elm və bilikdir. O, elmi biliklərə yiyələnməkdə təlimin rolunu kamil insan obrazı kimi yaratdığı İsgəndərin təlim alması səhnəsində konkret nümunələr əsasında vermişdir. İsgəndərin hərtərəfli inkişafını təmin etmək üçün atası onun təlimini çox yüksək biliyi ilə şöhrət qazanmış Niqumaş adlı alimə tapşırır.

O, böyük zəhmət hesabına İsgəndərə bütün elmlərin sirlərini öyrədir və ona "hər gizli biliyə" çatmaqda kömək edir.

Şair şəxsiyyətin hərtərəfli psixi inkişafında tərbiyənin rolunu xüsusi qeyd edir. İsgəndərin müəllimi ona dərin bilikləri öyrətməklə yanaşı, "ağıla nur", "ürəyə qüvvət" verən "şəhanə tərbiyə" aşılayır:

Şəhanə tərbiyə, hünər, nəzakət,
Ağıla nur verir, ürəyə qüvvət.

Şəxsiyyətin formalaşmasında təhsil, təlim, tərbiyə ilə yanaşı, özünütərbiyənin rolunu yüksək qiymətləndirən müəllif "Xəmsə"də bu barədə bir sıra dəyərli psixoloji yönümlü fikirlər söyləmişdir. Məsələn, "Yeddi gözəl" poemasında şair "özünü başa düşən, dərk edən, özünü yaxşı tanıyan insana ölüm yoxdur" deyir:

Kim ki, öz-özünü düşmüşdür başa,
Ona ölüm yoxdur, o ölməz haşa.
Nəqşini bilməyən fanidir, fani,
Baqi say bu nəqşi bilən insanı.
Tanısan özünü, köçsən cahandan,
Yenə bu dünyada yaşayacaqsan.

Nizami göstərir ki, özünü tanımayan, öz nöqsanını görmək istəməyənlər, öz hərəkətlərinə tənqidi yanaşmayanlar bədbəxt insanlardır, onlar şəxsiyyət səviyyəsinə yüksələ bilməyəcəklər:

Özündən hər kim ki, deyil xəbərdar,
Bir qapıdan girər, birindən çıxar...
Heç kəs öz könlünə tutmayır irad,
Odur varlığını eləməz abad.

Çağdaş dövrün pedaqoq və psixoloqları şəxsiyyətin formalaşmasına təsir edən amillər sırasında fəaliyyət və ünsiyyət amilini xüsusi qeyd edirlər. Halbuki dahi şair hələ doqquz əsrə yaxın bundan əvvəl bu amillərin, xüsusilə əmək fəaliyyətinin rolunu "Xəmsə"də "həyat – əməkdir" ideyası ilə şərh etmişdir. Böyük mütəfəkkirin fikrincə, əməksevərlik, çalışqanlıq, halal əməkdən psixoloji və estetik zövq almaqla məşğul olmaq insanda müsbət əxlaqi keyfiyyətlər formalaşdırdırır [4, s.169].

Əxlaqi keyfiyyətlərdən biri kimi dəyərləndirilən insanpərvərlik humanist şairin əxlaqi görüşlərinin əsasını təşkil edir. Yeni psixopedaqoji təfəkkürə görə "insanpərvərlik" çox geniş anlayışdır. Böyük insanpərvərlik nümunəsi olan dahi Nizami həmin anlayışa məhz bu yönümdən yanaşması ilə müasir elmi psixoloji dəyərlər haqqında fikirləri doqquz yüz ildən çox qabaqlamışdır. Şairin insanpərvərlik fikirlərinə görə, hər kəs bütün insanlara hörmət və rəğbət bəsləməli, onları sevməlidir. Çünki insan bu dünyanın əvəzedilməz varlığıdır:

Sən, ey yerdə fələyi heyrətdə qoyan insan,
Yer də, göy də nazınla daim oynayan insan.
Ülviyyət aləmindən xəbərdarsan deyə sən,
Qüdrətinlə şərəfsən, şansan yerə, göyə sən.

"Əgər insansansa, insanlığı sev" – deyən humanist şairin yaratdığı müsbət obrazların hamısı özünün şəxsiyyəti, yüksək bəşəri hissləri və insanpərvərliyi ilə seçilir. Xalqımızın yüksək əxlaqi keyfiyyətini göstərən milli-mənəvi dəyərlərimizdən olan ata-anaya ali məhəbbət, övladlara yüksək qayğı, ağsaqqallara dərin ehtiram və hörmətdir. Milli dəyərlərimizi yüksək qiymətləndirən Nizami poemalarında insanlığın parlaq nümunəsi kimi valideyn-övlad arasındakı qarşılıqlı münasibətlərində məhəbbəti, hörmət və izzəti dönə-dönə tərənnüm etmişdir. Bu da əxlaqi keyfiyyətlərin təbliğində şairin hikmət dolu öyüd və nəsihətlərindən yararlanmaq üçün geniş imkanlar yaradır. Məsələn, "Leyli və Məcnun" poemasında şair əsərin qəhrəmanı Məcnunun dili ilə ananı yüksək dəyərləndirir:

Başımın tacıdır ayağın sənin,
İncini bəsləmiş sənin sədəfin.
Sənin toxumunun məğziyəm, ana,
Ayaq torpağın da cənnətdir mana.

"İsgəndərnamə" poemasında dahi şair anaya böyük hörmət və məhəbbətin yüksək əxlaqi keyfiyyət olduğunun psixoloji məqamlarını açıqlayır. Əsərdə dünyanı fəth edən İsgəndər ölüm ayağında əziz anasına yazdığı məktubda xahiş edir ki, oğlunun ölümünə görə dərd-qəm çəkməsin:

Anacan, bu məktub gəlib çatarkən,
Çatıb qaşlarını kədərlənmə sən.
Bu dünya fanidir, əbəs ağlama,
Mənimçün yas tutma, qara bağlama!

Valideyn-övladın bir-birinə olan qarşılıqlı münasibətini nəzərə çatdıran şair uşağın valideynləri tərəfindən təmənnasız sevildiyini, övladın ailənin sevinci və evin işığı hesab edildiyini psixoloji çalarlarla ifadə etmişdir. Hər bir valideynin övladına bu cür müraciəti onların şəxsiyyətə çevrilməsində, özünəinamın və özünəgüvənin artmasında, daxili "mən" obrazının formalaşmasında güclü meyar hesab edilir [5, s.103].

İnsanpərvərliyi "insanlığın parlaq gövhəri" adlandıran şair xeyirxahlıq və yaxşılıq məfhumlarının sıx qarşılıqlı əlaqədə olduğunu göstərir. N.Gəncəviyə görə ətrafındakı insanlara qarşı xeyirxahlıq və yaxşılıq nümayiş etdirməyənləri "böyük insan" adlandırmaq olmaz:

Yaxşılıq etməsən əgər insana?
Böyüklük şərəfi verilməz sana.

Bununla belə, insanpərvərlik, xeyirxahlıq və yaxşılıq kimi anlayışların psixoloji mahiyyətini şərh edərkən dahi şair qeyd edir ki, pis adamlara xeyirxahlıq və insanpərvərlik göstərmək yaxşılara yamanlıq etməkdir. O, qəddar və insafsız insanlara qarşı sərt münasibət göstərməyi məsləhət görür:

Həyasız adama qarşı sərt rəftar,
Yumşaq davranmaqdan faydalı olar.

N.Gəncəvinin əsərlərində əxlaqi tərbiyənin inkişaf etdirilməsinə daxil edilən müdrik kəlamlarla ifadə etdiyi əsas mənəvi keyfiyyətlərdən biri də həmrəylikdir:

"İnsansan, insana qatış hər zaman;
İnsanla yaşayır insan hər zaman",

– deyən şair bütün insanları həmrəy olmağa, pozitiv qarşılıqlı münasibət qurmağa, əlaqəli şəkildə birgə yaşamağa çağırır:

İnsanla yaşayan mərddir, kişidir,
Kimsəni sevməmək namərd işidir.

Şair möhkəm əqidəsinə və inamına görə insana sözdə deyil, əməldə möhkəm olmağı tövsiyyə edir.

Birlik və həmrəyliyin nəticə etibarı ilə səadətin açarı olduğunu göstərir. Birlik yoxdursa, psixoloji gərginliklər, narahatlıqlar başlayır, bu isə insanları şəxsiyyətlərarası emosional fəlakətlərə sürükləyir:

Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxardar onların əli.
Nifaq olan yerdə fəlakət də var,
Səadət günəşi birlikdən doğar [1, s.189].

həyatda müəyyən çətinliklər yaşamasının psixoloji məqamlarını bu cür açıqlayır.

Əxlaq tərbiyəsinin və davranış qaydalarının düzgün inkişaf etdirilməsi qaydalarına daxil edilən, şəxsiyyətin inkişafına birbaşa öz təsirini göstərən dostluq və yoldaşlıq keyfiyyətlərinə də dahi Nizami bütün poemalarında xüsusi diqqət yetirmiş, əsərlərində bir sıra nümunəvi davranış meyarlarını özündə əks etdirən dost obrazlarının psixoloji mahiyyətini açıqlamışdır. Səmimi dostluq və yoldaşlıq münasibətlərini hər kəs üçün çox vacib sayan şair "bir həmdəmi", "könül sirdaşı", yəni bir dostu olmayanların:

Həyat nəyə gərəkdir, bir həmdəmin olmasa?
İnsan çətin yaşayar dosta əmin olmasa.

"Yaxşı dost dar gündə tanınar", – deyən ulularımızın bu hikmətini şair məntiqi təfəkkürün gücü ilə daha da qüvvətləndirərək bu cür məsləhət verir:

Elə sadiq dost ara, səni darda qoymasın,
Çəkib tordan çıxarsın, səni torda qoymasın.

"Dostun olmazsa, həyatın da fəlakətdə olar", – deyən Nizamiyə görə həqiqi dost odur ki, dostunun səhvini onun üzünə desin, dostunun sirrini gizli saxlasın, dar gündə ona dayaq olsun, dostluqdan təmənna güdməsin. Dahi şair qərəzli və ikiüzlü adamların yağı düşməndən daha etibarsız və daha qorxulu olduğunu kəskin şəkildə qeyd edir:

Təmənnalı olarsa dostun, aman, dostluğu,
Düşmənçilik deməkdir, dostun haman dostluğu.
İkibaşlı dostluğu dostluq sanma heç zaman,
Qərəzli dost düşməndir, arxalanma heç zaman.

Dostluq və yoldaşlıq münasibətlərinə çox yüksək qiymət verən Nizami hər kəslə dostluq etməməyi də məsləhət görür. Bu misallardan aydın görünür ki, şair insanları pozitiv qarşılıqlı şəxsi psixoloji keyfiyyətlərə malik olan "yaxşı ad qazanmış gözəl dost"lar aramağa ruhlandırır. Qeyd edir ki, "gözəl dost" insan üçün dünyada hər şeydən üstündür:

Yaxşı ad qazanmış gözəl dost ara,
Ondan yetişərsən ağ günə, vara.

Nizami Gəncəvi təsvir etdiyi bütün hadisələri Azərbaycanla əlaqələndirmiş və vətəninin keçmişini fəxrlə tərənnüm etmişdir. Onun yaradıcılığında vətən məhəbbəti doğma xalqı uğrunda qəhrəmanlıq ideyası ilə birləşir. Vətənpərvərliyi hər bir insan üçün zəruri əxlaqi müsbət keyfiyyət hesab edən N.Gəncəvi böyük vətənpərvər olmuşdur [6, s.201]. O, doğma yurdu Gəncəni çoxsaylı təkliflərə baxmayaraq, şan-şöhrətə, var-dövlətə dəyişməmiş, ömrünün sonunadək oranı tərk etməmişdir. Vətənpərvərlik anlayışına çox geniş mənada yanaşan Nizamiyə görə vətənpərvərlik təkcə vətəni sevməklə bitmir, əsl vətənpərvərlik hissləri Vətəni yadellilərdən qorumaqdır. Şairin əqidəsinə görə, Vətəni hamı sevməli və doğma elini göz bəbəyi kimi qorumalıdır:

Çalış ki, kirpiyin olsun almaztək,
Ayıq ol, ölkənin keşiyini çək.

"Dünya yurdumuzdur, candan əzizdir", – deyən şair, "bizim doğma yerimiz, yurdumuz olduğu üçün biz onu canımızdan da çox sevməliyik" kəlamı ilə insanlarda vətən sevgisini daha da möhkəmləndirir. "Doğma yurdda insanın qul olması qərib ölkədə sultan olmasından daha yaxşıdır" fikrinin isə psixoloji mahiyyəti daha dərin və parlaqdır:

Azacıq düşünsən bir nüktə vardır:
Hər kəs öz şəhrində bir şəhriyardır.
Öz şəhrində olsan ən alçaq insan,
Yaxşıdır qürbətdə sultan olmaqdan.

"Qürbət cənnət olsa da, yenə Vətən yaxşıdır", – deyən ata-babalarımızın hikmət dolu vətənpərvərlik tərənnümünü uca tutan ulu Nizami, İsgəndər kimi fatehin – yüzlərlə cənnət ölkəni öz ixtiyarına keçirmiş bir hökmdarın vətən həsrətini çox təsirli psixoloji boyalarla təsvir edir:

İsgəndər hər yerdə qələbə çaldı,
Lakin vətən eşqi qəlbini aldı.
Hökmündə olsa da saysız vilayət,
Öz doğma yurduna çəkərdi həsrət.

Məlum olduğu kimi, hazırki dövrdə müasir gənclərdə böyük aktuallıq kəsb edən hərbi-vətənpərvərlik hisslərinin aşılanması, inkişaf etdirilməsi vacib əxlaqi keyfiyyət olmaqla vətənpərvərlik anlayışının tərkib hissələrindən biridir. Dahi şairin kəlamları bu gün də öz aktuallığını qoruyub saxlamaqla hər gəncə müqəddəs örnək verir:

"Can yandırsan orduna, məmləkətə, yurduna,
Arxalana bilərsən, öz xalqına, orduna".

N.Gəncəvi öz poemalarında vətəni sevməklə bərabər, onu qorumağın çox vacib olduğunun zəruriliyini dönə-dönə xatırlatmış, onun yadelli işğalçılardan və əsarətdən xilas edilməsi yollarını da məharətlə əks etdirmişdir [7, s.145]. Şair əsərlərində Vətən uğrunda mübarizənin üç yolunu tövsiyə və təsvir etmişdir: birincisi, "ağılla, tədbirlə" (siyasi yol – Nüşabənin dünya fatehi İsgəndərə qarşı istifadə etdiyi yol): ikincisi, "qılıncın gücü ilə" (hərbi yol – Xosrovun öz ölkəsini azad etmək üçün istifadə etdiyi yol); üçüncüsü, ağlın və qılıncın gücünün birləşdirilməsi yolu (siyasi-hərbi yol – fateh İsgəndərin üstünlük verdiyi yol). Şair poemasında Əflatunun dili ilə İsgəndərə verdiyi məsləhət mahiyyətcə xüsusi psixoloji dəyərə malikdir:

Mərdlərin qan tökən qılıncı, bəlli,
Alim tədbiri ilə olar kəsərli.

Şəxsiyyət psixologiyasında əxlaqi hisslərin inkişafı və formalaşmasına aid olan yüksək əxlaqi keyfiyyətlərdən biri də, insan davranışında düzlük və doğruçuluq xüsusiyyətləridir. Sairin bütün poemalarında və ömrü boyu insanlara düzlük və doğruçuluq xüsusiyyətlərini təlqin etməyə çalışması, insanları düzgün və doğru qarşılıqlı davranışa səsləməsi çox böyük psixoloji əhəmiyyət kəsb edir:

“Nə qədər ki, dünyada alıb-verirsən nəfəs,
Sən düzlük qapısını döyməyə göstər həvəs”,

– deyən şair insanları düzlüyə, doğruçuluğa səsləyir və bunların dünyanın nicat yolu olmasını hesab edir:

Doğruçuluq yaxşıdır, uymayın yada,
Bircə düzlükdədir nicat dünyada.

Şair doğruçuluq xüsusiyyətini insanın müsbət şəxsi keyfiyyətlərini əks etdirən və onu hər an qoruyan "zireh" adlandırır. Əyriliyin, yalanın isə mənfi psixoloji xüsusiyyət olduğunu açıb göstərir. Həyatın başlıca şərtlərindən olan doğruçuluq xüsusiyyətini "vicdan tərəzisi" adlandırır. O, öz əsərlərində xarakterdə düzlük və doğruçuluq xüsusiyyətinin formalaşmasını insanın həyatda ucalmağının zəruri şərtlərindən biri hesab edir:

Əyri gülü düzlükdə tikan qucar, aldadar,
Bil ki, şəkər qamışı düzlüyündən bal dadar.
Doğruluğun harda ki, ucalıbdır bayrağı,
Haqq əliylə fələkdən öc alıbdır bayrağı.

Bu vacib əxlaqi keyfiyyətlərin psixoloji mahiyyətini və əhəmiyyətini dərindən anladan dahi Nizami xatakterində olan məhz doğru sözləri və düz əməlləri sayəsində ən uca ad olan "kamil şəxsiyyət" adını qazanmışdır. Bunu şairin özü də səmimiyyətlə etiraf edir:

Doğru sözə bağlıdır öz qüdrətin həmişə,
Qoy qüdrətdən güc alsın söz qüdrətin həmişə.
El gözündə Nizami ucalıbdır düzlükdən,
İlhamına, qəlbinə güc alıbdır düzlükdən.

Əsərlərində sadəlik və təvazökarlıq kimi müsbət şəxsi psixoloji keyfiyyətlərin əhəmiyyət və mahiyyətini "ağac bar gətirdikcə, başını aşağı salar" dəyəri ilə aşılamağa çalışan şair xarakterində təvazökarlığı olmayan insanları zəhərli ilana bənzədir:

İlantək dikbaşlı gəzmə, ey insan!
Aşacaq dünyanın seli başından...
Çox da yüksəkliyə ucalma ki, sən,
Torpağa düşəndə inciməyəsən.

Dahi şairin fikrincə, insan şəxsiyyəti xaraktercə nə qədər sadə və təvazökar davranış nümayiş etdirsə, öz xalqına baş əyməyi bacarsa, o, xalqının gözündə əbədi olaraq ucalacaqdır:

Ucalar özünü əyən insanlar,
Təvazö sahibi hörmət qazanar.

Şan-şöhrətə, bər-bəzəyə aludə olan insanlara mənfi münasibətini gizlətməyən, onları kəskin şəkildə tənqid edən şair insanın gözəlliyi onun xarakterindəki sadə davranış və münasibətində, rahatlığı isə sadə həyat yaşamağında olduğunu psixoloji çalarlarla əks etdirir:

Torpaq vücuduna vurma min bəzək,
İnsana qum kimi sadəlik gərək.

"Öz-özünə vurulub bəyənmə sən özünü" fikrini hamıya aşılamağa çalışan dahi Nizami demək olar ki, bütün poemalarında özünə müraciətlə: "təvazökar ol!" – deyir. Şairin fikrincə, özünü hamıdan yüksək qiymətləndirən və yüksək eqoya malik olan insanların xarakterində olan bu mənfi xüsusiyyət həyatda heç vaxt başqaları tərəfindən qəbul edilməz, təvazökar və sadə insanlar isə daha uzun ömür sürər:

Özünü bəyənsə insan nə qədər,
Öz gözündən ona dəyər bəd nəzər.
Özündən razılar hər zaman sınar,
Ondan qurtarana uzun ömür var.

Bu misraların təhlili göstərir ki, şan-şöhrət zirvəsinə yüksəldiyinə baxmayaraq, heç vaxt öz sadəliyini və təvazökarlığını xalqın qarşısında itirməyən dahi Nizami kamil bir şəxsiyyət kimi davranışındakı və insanlara münasibətindəki belə gözəl əxlaqi keyfiyyətlərinə görə bu gün gənc nəslə bir örnək, onun şəxsi həyatı isə hər kəs üçün mükəmməl tərbiyə nümunəsidir.

Şairin əsərlərində əks etdirdiyi və dönə-dönə toxunduğu mənfi və əxlaqi davranış keyfiyyətlərini belə qruplaşdırmaq olar: paxıllıq, yalançılıq, tamahkarlıq, ikiüzlülük, haqsızlıq, satqınlıq, vicdansızlıq, qəddarlıq, tənbəllik, israfçılıq, lovğalıq, qorxaqlıq, iradəsizlik və s. Qeyd olunan keyfiyyətlərin hər birinin mahiyyəti və təkcə insanın şəxsi psixoloji həyatı üçün deyil, bütövlükdə cəmiyyət üçün zərərli davranış xüsusiyyəti olması haqqında şairin poeziyasında, xüsusilə, "Xəmsə"də hikmətli psixoloji mahiyyət kəsb edən ifadələr, kəlamlar, beytlər kifayət qədərdir. İnsanların şəxsi mənəviyyatını korlayan bu mənfi emosional davranışa şair bütün poemalarında tənqidlə yanaşır.

“Sirlər xəzinəsi”, “Xosrov və Şirin” poemalarında isə bu davranışın psixoloji açıqlaması ustalıqla verilmişdir.

Şahlara, hökmdarlara baş əyməyən, sözünü birbaşa hər kəsin üzünə deməyi bacaran məğrur şairin ən çox nifrət etdiyi mənfi əxlaqi davranış xüsusiyyəti olan ikiüzlülükdür. O, əsərlərində bu cür xarakterə malik olan insanları saxta qızıl, qəlp pul kəsənlərə bənzədir. Belələrini “üzü qızıl, içi mis” adlandırmaqla bərabər, ikiüzlülərin üzünə baxanda “aydan arı, sudan duru” görünsələr də, daxildən xəbis və kinli xarakter xüsusiyyətlərinə malik olmalarının psixoloji çalarlarını bu cür qabarıq şəkildə nümayiş etdirir:

Üzü qızıl, içi mis saxta pul san onları,
Hər sözünə qulp qoyar, tanı hər an onları.
Üzlərinə baxanda aydan arı hər biri,
Əməliylə aləmin riyakarı hər biri.
Üzdə şamdır, daxildə düyünlü ad hamısı,
Üzdə sadə, daxildə xəbis vücud hamısı.

Dahi şair əsərlərində mənfi əxlaqi davranış xüsusiyyətlərindən olan tamahkarlığın yüksək dərəcəsi olan hərisliyi də ifşa edir. O, tamahkarlıq və hərislik kimi mənfi xarakterik xüsusiyyətlərə malik olan insanları qazandıqları nemətlərə qane olmağa səsləyir:

Çibintək, mığmığatək qan sormağa can atma,
Tamahın neştəriylə ürəyini qanatma.
Qarşına gələn nemət qismətindir, yeyərsən,
Ruzi verən kimsəyə min-min alqış deyərsən.

İnsanlara “həyat sağlam əməkdən ibarətdir”, çağırışı edən şairin əqidəsinə görə, hərtərəfli inkişaf etmiş şəxsi keyfiyyətlərə malik olan insan yalnız halal əməyi və zəhməti hesabına cəmiyyətdə yüksək mövqe tutar, şan-şöhrət sahibi olar. Həyatda qarşılaşdığı həm mənəvi, həm maddi, həm də psixoloji emosional çətinliklərə insan yalnız öz yorulmaz əməyi sayəsində qalib gələ bilər:

Əməkdir insanı ucaldan, inan,
Əməklə çıxarsan fırtınalardan.

Şairin fikrincə, halal zəhmət insanı firavanlığa, şadlığa, rahatlığa, şan-şöhrətə çatdırmaqla yanaşı, xarakterindəki əxlaqi keyfiyytələri saflaşdırmağa, onda insanlara qarşı mərhəmət və empatiya hisslərini oyatmağa qadirdir:

Öz halal zəhmətinlə namuslu insan sayıl,
Hər yetənə alçalma, əl açıb olma sail.

Qeyd olunan nümunələrdəki başlıca fikir və ideyalarda N.Gəncəvinin əməyin iqtisadi, sosial, əxlaqi, psixoloji, idrak və tərbiyəvi mənası ilə bağlı hikmətli kəlamlarından tərbiyəvi nəticə çıxarmağı, ömrü boyu halal zəhməti ilə dolanan, şahlara baş əyməyən, gecə-gündüz yorulmadan çalışan, hər əzaba qatlaşan və məhz gərgin əməyi sayəsində dünya poeziyasının korifeyi zirvəsinə ucalan zəhmətkeş şairin şəxsi həyatı bizim üçün kamil bir nümunədir.

Müasir elmi psixologiyaya görə, əmək tərbiyəsinin başlıca tərkib hissələrindən biri peşəyönümü işidir. Peşəyönümü işində peşələrə maraq tərbiyəsi və peşə seçmək üçün məsləhətin verilməsi mühüm rol oynayır. “Xəmsə”nin bu məsələlər baxımından tədqiqi və təhlili göstərir ki, dahi Nizami demək olar ki, bütün poemalarında müxtəlif peşə və sənət növlərinə diqqəti cəlb etmiş, onların psixoloji əhəmiyyətini, səciyyəvi xüsusiyyətlərini, cəmiyyətdəki mövqeyini açıb göstərmişdir.

Kamil insan konsepsiyasına sonadək sadiq qalan böyük şair peşə seçimi işində məsləhət görür ki, hansı peşəni seçməyindən asılı olmayaraq, insan çalışmalıdır ki, öz sənətinin kamil ustası olsun, seçdiyi peşənin dərinliyinə və incəliklərinə bələd olsun. Nizaminin qəti inamına görə: “Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan.”

Şair doğma oğlu Məhəmmədə “Leyli və Məcnun” poemasında tövsiyə edir ki, oğlu özünə peşə seçərkən “yüz ölçüb, bir biçsin”. Ən əsası isə hansı peşəni seçməyindən asılı olmayaraq, onun sirlərinə mükəmməl bələd olmaq üçün həvəslə səy göstərsin:

İsa mərifətli həkim ol, amma,
İnsanı öldürən bir həkim olma [1, s.65].

Peşəyönümü ilə əlaqədar mütəfəkkir-şairin öyrətmək istədiyi həyat həqiqətlərindən biri də budur ki, hər bir insan gərək öz peşəsi ilə məşğul olsun, bacardığı sənətin qulpundan yapışsın, “ayağını yorğanına görə” uzatsın, gücü çatmayan, başı çıxmayan işin ağırlığını öz çiyinlərinə qaldırmasın. “İsgəndərnamə” poemasından böyük fateh İsgəndərlə cavan əkinçinin söhbətini buna misal göstərmək olar:

Bir gün İsgəndər səfər zamanı münbit torpaqlı bir ərazidə iş görən gənc bir oğlana “gözəl bir gəncsən, bu torpaqla niyə əlləşirsən?
Gözəl insanlar gözəl işlərlə məşğul olar “ – deyə sual verir. Gəl, bu torpaqdan əl çək, istəsən, “sənə lap şahlıq verərəm”. Gənc əkinçi oğlan İsgəndərin bu təklifinə özünəməxsus şəkildə – ağılla cavab verir:

Başqa iş bilmirəm, əkinçiyəm mən,
Padşahlıq eləmək gəlməz əlimdən.

N.Gəncəvi “kamil insan” konsepsiyasına sadiq qalaraq, “gözəllik” anlayışını hərtərəfli açıqlamış, ideal gözəlliyə malik obrazlar yaratmışdır. Dahi şairin yaratdığı gözəl insan obrazları zahiri və daxili-mənəvi zənginlikləri ilə vəhdətdədir. Məcnun, Leyli, Bəhram, Xosrov, Şirin, Fərhad, Nüşabə, İsgəndər və s. obrazları həm zahirən, həm də daxilən ağıllı, əxlaqlı, tərbiyəvi davranışlı olaraq bütöv mənəviyyatca gözəldirlər [8, s.56].

Nizami Gəncəvinin əsərlərində xalqımızın fəlsəfi fikri, milli sosiologiya, psixologiya da öz əksini tapmışdır. Bu mənada, böyük şairin əsərləri bütün yaş qrupları, o cümlədən uşaqlar üçün aktualdır. Məsələn, onun ən məşhur sayılan “Fitnə” əsəri istər uşaqların mənəvi-psixoloji inkişafında, istər gənc nəslin tərbiyəsində, istərsə də böyüklər üçün ibrətamizliyinə görə olduqca dəyərlidir.
N.Gəncəvinin bütün yaradıcılığı Azərbaycan psixoloji fikrinin yaranması, inkişafı və formalaşmasında əhəmiyyətli rol oynamışdır. Onun yaradıcılığı bir tərəfdən xalqın təfəkkür tərzinin inkişafına təkan vermiş, digər tərəfdən bu əsərlərin özündə həyat reallıqları öz əksini tapmışdır. Psixoloji fikrin inkişaf mərhələlərinin müəyyənləşdirilməsində şairin demək olar ki, bütün əsərləri qiymətli bir mənbə, əvəzsiz xəzinədir. Biz öz gələcəyimizin sosial-psixoloji tərbiyəsində milli ənənələrə söykənməliyik. Milli ənənələrimizin ən bariz nümunələrindən biri isə Nizami Gəncəvi ədəbi irsidir. Bu irsin araşdırılması, tanıdılması vətənpərvər gələcəyimizin yetişməsinə də öz töhfəsini verəcək.

Nəticə / Conclusion

Nizaminin poeziyası doqquz əsrə yaxındır ki, insanların qəlbini öz işığı ilə nurlandırır. Dahi şəxsiyyət insanları ağıla, kamala, dünyanın sirlərinə dərindən bələd olmağa, "hər gizli xəzinədən bir dürr çıxarmağa", gecə-gündüz yorulmadan çalışaraq dərin biliklərə yiyələnməyə, mənəvi saflığa, halal əməklə yaşamağa, "zəhmət tikanından" qorxmamağa, fiziki kamilliyə, öz həyatını gözəllik qanunları əsasında qurmağa, "həyat üçün yaranmış canlıları sevməyə, vahid orqanizm olan təbiəti qorumağa, qənaətlə dolanmağa, haqqa-ədalətə, qanunlara (kimliyindən asılı olmayaraq) boyun əyməyə, hərislikdən, tamahdan, xəbislikdən, paxıllıqdan, riyakarlıq və yalandan, böhtançılıqdan, lovğalıqdan, qəddarlıq və zülmkarlıqdan uzaq gəzməyə, özünü dərk etməyə, tanımağa və düzgün qiymətləndirməyə, bir sözlə, "kamil insan" zirvəsinə yüksəlməyə səsləyir.

Nizami Gəncəvi yaradıcılığının nəşri, tədqiqi və təbliği bu gün də diqqət mərkəzindədir və bu sahədə atılan hər bir uğurlu addım bizi böyük Azərbaycan şairinin ölməz bəşəri ideyalarına daha da yaxınlaşdırır, bəşəriyyətin xoşbəxtliyi uğrunda mübarizədə onu bizim mənəvi müasirimizə çevirir. Bəli, elə bu baxımdan da qeyd etmək lazımdır ki, Nizaminin bizə qoyub getdiyi ədəbi irs tükənməz bir xəzinədir.

Dahi şairin təhsil, təlim və tərbiyəyə dair dərin və əvəzedilməz psixoloji məna kəsb edən fikir və ideyalarından istifadə yolları rəngarəngdir. Başlıcası, əsas məsələ bu sistemdən təlim və tərbiyənin keyfiyyətini yüksəltmək vasitəsi kimi səmərəli istifadə etməkdir.

İstifadə edilmiş ədəbiyyat / References

1. Apoyev B. (2008). Nizami Gəncəvinin pedaqoji görüşləri. Bakı, Adiloğlu. 244 s.
2. Babayeva T.T. (2000). Nizami Gəncəvinin ədəbi irsində şəxsiyyət problemi. Bakı, Nurlan. 198 s.
3. Əlibəyzadə E. (2004). Nizami və tariximiz. Bakı, 186 s.
4. Əlizadə Ə. Şirinova Z. (2006). Nizami Gəncəvinin psixoloji görüşləri. Bakı, ADPU. 277 s.
5. Əhmədov Ə. (2001). Nizami-Elmşünaslıq. Bakı, 254 s.
6. İbrahimov Ş. (2012). Bütün dünyanın böyük mütəfəkkiri. "Təhsil" jurnalı. Yanvar. s. 30-35.
7. Kərimli T. (2002). Nizami və tarix. Bakı, Elm. 241 s.
8. Şirinova Z. (2002). Nizami Gəncəvinin psixoloji görüşləri. Bakı, 151 s.